## Şəffaflığın və hesabatlılığın əsas şərtlərindən biri

Dünya təcrğbəsi göstərir ki, cəmiyyəti narahat edən neqativ təmayüllərə, ilk növbədə korrupsiya hallarına qarşı mübarizə sahəsində ən səmərəli vasitələrdən biri də şəffaf maliyyə alətlərinin, xüsusən də nağdsız üdəniş sisteminə kezidin təmin edilməsidir.
Əslində, nağdsız ödəniş sistemləri dünya iqtisadiyyatı üçün təzə hadisə deyildir, bu təcrübə ayrı-ayrı ölkələrin tarixi və iqtisadi inkişaf səviyyəsindən asılı olaraq fərqlənir. Məsələn, digər ölkələrlə müqayisədə Böyük Britaniyada veksellər və çeklər vasitəsilə nağdsız hesablaşmalar xeyli əvvəl yayılmağa başlamışdır. Bu ölkədə hələ 1775-ci ildə kliринq palataları - qarşılıqlı tələblər əsasında çeklər və digər ödəniş sənədləri üzrə nağdsız hesablaşmaları həyata keçirən banklararası təşkilatlar yaranmışdı. Müasir dünyada isə nağdsız hesablaşmalar daha böyük sürətlə cəmiyyətin həyatına nüfuz edir. Nağdsız ödənişləri həyata keçirmək üçün hazırda 150-dən çox ölkədə plastik kartlardan istifadə olunur. Plastik kartlar - ümumiləşdirici vasitə olaraq bir-birindən təyinatına, texniki imkanlarına, istehsalçılarına, funksiyalarına görə fərqlənir.
Nağdsız hesablaşmalar zamanı real pul nominalları faktiki olaraq görünmür, alqı-satqı əməliyyatları elektron formada reallaşır. Bu halda pulun alıcıdan satıcıya hərəkəti bank vasitəsi ilə həyata keçirilir. Yəni pul vəsaitləri alıcının bank hesabından satıcının bank hesabına ödənilir. Bank sistemlərində istifadə edilən elektron hesablaşmalar sisteminin fəaliyyət mexanizmi də plastik kartların istifadəsinə əsaslanır. O, özündə əhalinin bankomatlar, POS-terminallar vasitəsi ilə ticarət və ictimai iaşə təşkilatlarında həyata keçirdiyi hesablaşmaların elektron sistemini birləşdirir.
Plastik kartların dünyada tanınmış «Visa», «Master Card», «American Ekspress» kimi emitentləri Beynəlxalq Standartlar Təşkilatının (ISO - International Organization for Standardization) üzvləridir. Bu təşkilat tərəfindən plastik kartların ümumi xarici görünüş standartı, hesabların nömrələnməsi qaydası, maqnit xətlərinin formatının, aparılan əməliyyatlar barəsində kart sahibinə göndərilən məlumatların formatının standartları işlənib hazırlanmışdır. Məhz həmin standartlar bütün dünyada tətbiq edilir.
Qərbin sənayecə inkişaf etmiş ölkələrində plastik kartlar daha geniş tətbiq edilərək çek kitabçalarını tədricən sıxışdırır. Bu kartların digər üstünlüyü ondadır ki, vətəndaş külli miqdarda nağd pul vəsaitini özü ilə gəzdirmək riskindən, eləcə də ticarət zamanı əlavə vaxt itkisindən azad olur. Başqa bir üstünlük isə ondadır ki, günün istənilən vaxtı bankomatlar vasitəsilə şəxsi hesabdan nağd pul çıxarmaq mümkündür.
Avropanın inkişaf etmiş dövlətləri nağdsız dövriyyənin genişləndirilməsi üçün nağd hesablaşmalara qanunverici qaydada məhdudiyyətlər tətbiq edirlər. Bu qaydaların gözlənilməsi üçün maliyyə sanksiyalarından istifadə edilir, eyni zamanda prosesin stimullaşdırılması üçün ən müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, Fransada, Bolqarıstanda və Rusiyada ölkə daxilində aparılan nağd ödənişlərə maksimal hədlər müəyyən edilmişdir.
Nağdsız ödəniş sisteminin inkişafı baxımından elektron ticarətin vacibliyi də xüsusi vurğulanmalıdır. Elektron ticarət informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyətdir. Elektron ticarətin iştirakçıları - elektron ticarətin həyata keçirilməsi zamanı satıcı (təchizatçı), alıcı (sifarişçi) və elektron sənəd dövriyyəsi vasitəçisi kimi çıxış edən hüquqi və fiziki şəxslərdir. Bu gün Azərbaycanda aparılan ticarət əməliyyatlarının cəmi 3%-ə qədəri elektron şəkildə həyata keçirilir. Amerika Birləşmiş Ştatlarında bu rəqəm 75%, Avropa ölkələrində isə 60%-dir.
Ümumilikdə, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində nağdsız ödəniş sisteminin iqtisadi həyatın bütün sahələrində tətbiqi ciddi zərurət kimi meydana çıxmışdır. Hökumət səviyyəsində həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər isə yaxın illərdə bu sahədə əhəmiyyətli dönüşün baş verəcəyini əminliklə söyləməyə ciddi əsaslar yaradır.
Nağdsız ödəniş sisteminin geniş yayılması Azərbaycanda maliyyə-bank sisteminin inkişafı ilə yanaşı, cəmiyyətdə şəffaf maliyyə mexanizmlərinin tətbiqi, vergi bazasının genişlənməsi baxımından vacibdir. Yəni hər bir vətəndaş plastik kartlar vasitəsilə artıq ödəniş etmək (xüsusən də rüsum və məcburi ödənişlər zamanı) riskindən xilas olur. Nəticədə korrupsiya və rüşvətxorluğa zəmin yaradan bir sıra hallar da aradan qalxır. Ən müxtəlif ticarət və iaşə obyektlərində vergidən yayınmaların qarşısı alınır, büdcəyə daxilolmalar artır. Bu isə, öz növbəsində, iqtisadiyyatın

güclənməsinə, büdcədən maliyyələşən təşkilatlarda çalışan vətəndaşların sosial rifah halının yüksəlməsinə şərait yaradır.

**Samir MUSTAFAYEV**